


**Azərbaycanın mülki yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində baş vermiş uşaq itkiləri barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**

# ARALIQ HESABATI

**Bakı - 2020**

**Mündəricat**

**Giriş ........................................................................................................ 3**

**Uşaq itkiləri......................................................................................... 4**

**Hüquqi aspektlər ...............................................................................10**

**Uşaqların hərbi əməliyyatlara cəlb olunması.................................................11**

**Nəticə ........................................................................................................ 13**

## Giriş

Bu hesabatın hazırlanmasında məqsəd 27 sentyabr 2020-ci il tarixindən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki yaşayış məntəqələrinə edilən hücumlar nəticəsində baş vermiş uşaq itkiləri ilə bağlı faktlar və sübutları beynəlxalq ictimaiyyətə, xüsusilə də beynəlxalq insan hüquqları təşkilatlarına təqdim etməkdir. Təqdim olunan hesabat Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın insan hüquqlarının kobud şəkildə pozulması faktlarını yerində araşdırmaq məqsədi ilə həyata keçirdiyi 6 faktaraşdırıcı missiyasının nəticələrinə əsaslanır.

Bu hesabat beynəlxalq ictimaiyyəti təcili şəkildə məsələyə münasibət bildirməyə, insan hüquqları pozuntularının dayandırılması üçün lazımi addımların atılmasına çağırır.

27 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini açıq şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan silahlı qüvvələrinin bölmələrini, həmçinin Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının əhalinin sıx yaşadığı yaşayış sahələrini qəsdən və məqsədli olaraq intensiv şəkildə artilleriya atəşinə tutmuşdur.

Növbəti günlərdə Şəmkir, Beyləqan, Yevlax, Ağdam, Füzuli, Cəbrayıl, Goranboy, Tərtər, Bərdə, Ağcabədi, Gəncə və digər şəhər və rayonlarımız orta mənzilli raketlərlə ağır bombardmana məruz qalmışdır.

Nəticədə qadınlar və uşaqlar da daxil olmaqla mülki şəxslər arasında çoxsaylı itki baş vermiş, bir çox yaşayış evlərinə və digər mülki infrastruktur obyektlərinə böyük ziyan dəymişdir.

Ümumilikdə ağır artilleriya hücumları nəticəsində 12-si uşaq olmaqla 90-dan çox mülki şəxs həlak olmuş, 50-si uşaq olmaqla 450-dən çox şəxs isə yaralanmışdır. Bu hücumlar nəticəsində 3410-dan çox ev, 120 çoxmənzilli yaşayış binası və çoxlu sayda məktəb, xəstəxana, uşaq bağçası da daxil olmaqla 512 mülki infrastruktur dağıdılmışdır.

Tədqiqatın metodları aşağıdakı kimidir:

1. Ombudsman tərəfindən birbaşa olaraq yerində aparılan araşdırma.
2. Ombudsman Aparatının əməkdaşları tərəfindən aparılan araşdırma.
3. Ermənistanın hərbi hücumlarından zərər çəkən mülki şəxslərin müraciətlərinə cavab.
4. Etibarlı informasiya mənbələrindən istifadə.

## UŞAQ İTKİLƏRİ

28 sentyabr 2020-ci il tarixində faktaraşdırıcı missiya çərçivəsində Ombudsman Səbinə Əliyeva Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qalan Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndi və Tərtər şəhərinin mərkəzi, eləcə də Tərtər rayonunda mülki əhalinin yaşadığı ərazilərdə olmuş və yerində vəziyyəti araşdırmışdır.

Faktaraşdırıcı monitorinq nəticəsində Ermənistan silahlı qüvvələrinin əsasən mülki obyektləri, yaşayış evlərini, xəstəxanaları, təhsil müəssisələrini, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını və digər sosial obyektləri qəsdən və məqsədli şəkildə hədəf aldığı müşahidə edilmişdir.

Hava hücumu da daxil olmaqla ağır artilleriya və iri çaplı silahlardan atılan atəş nəticəsində mülki əhali arasında çoxsaylı insan tələfatı və yaralananlar qeydə alınmış, bir çox fərdi evlər və digər sosial obyektlər tamamilə dağıdılmış və ciddi ziyan dəymiş, ev heyvanları kütləvi şəkildə qırılmışdır.

Ombudsman Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndindəki iki məktəb yaşlı uşaq, iki yaşlı və bir gənc olmaqla bir ailədən beş nəfərin həlak olduğu evi ziyarət etmişdir.




**Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndinə raket hücumu nəticəsində həlak olan əmiuşaqları**




**Ermənistanın Ağcabədi rayonuna edilən raket hücumları nəticəsində həlak olan 9-cu sinif şagirdi, 14 yaşlı Fərid İsgəndərov**

6 oktyabr 2020-ci il tarixində Gəncə şəhərində həyata keçirilmiş monitorinq zamanı Ombudsman Səbinə Əliyeva ağır artilleriya və raket atəşləri nəticəsində dağıdılan və ciddi şəkildə zərər görən mülki evlərə, tarixi-mədəni abidə və binalara, böyük ticarət mərkəzlərinə və digər ictimai obyektlərə baxış keçirmişdir. Uşaqlar da daxil olmaqla vətəndaşların beynəlxalq hüquqi aktlarda təsbit olunmuş fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulması faktları müəyyən edilmişdir.

Ermənistan ərazisindən Gəncə şəhərinə atılan artilleriya və raket zərbələri nəticəsində yaşayış binalarına, mülki infrastruktura, tarixi binalara ciddi ziyan dəymiş, uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla 32 mülki şəxs yaralanmış, 1 şəxs isə həlak olmuşdur.

16 yaşlı Məleykə Abdullayeva,10 yaşlı Turqay Əliyev, 9 yaşlı Fərid İbrahimov, 7 yaşlı Banu İbrahimova, 5 yaşlı Malik Hacıyev və 11 aylıq Zəhra Eyyubova bu hücumlar nəticəsində yaralanmışdır.



**4 oktyabr 2020-ci il tarixində Gəncə şəhərində mərmi partlayışı nəticəsində 11 aylıq körpə Zəhra Eyyubova (d/t: 31.10.2019) ağır yaralanıb.**

Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 11-də gecə saat 02 radələrində Gəncə şəhərinin mərkəzi hissəsindəki çoxmənzilli binaya hücumu nəticəsində binanın 10 sakini həlak olmuş, 9-u uşaq (16 yaşından aşağı) olmaqla 34 nəfər yaralanmışdır: 2 yaşlı Yağmur Mehdiyeva, Nilay Əliyeva və Məryəm Həsənova, 6 yaşlı Aylin Həsənova, 4 yaşlı Bəxtiyar Heydərli, 12 yaşlı Şəfa Şirinova, 14 yaşlı Şəmiddin Şirinov, 15 yaşlı Aysu Əliyeva və 16 yaşlı Səlim Mustafazadə. Bundan başqa, uşaq bağçaları, məktəblər və xəstəxanalar da daxil olmaqla 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.



**11 oktyabr 2020-ci il tarixində Gəncə şəhərinin növbəti dəfə atəşə tutulması nəticəsində yaralanmış uşaqlar**




**11 oktyabr 2020-ci il tarixində Gəncə şəhərinin növbəti dəfə atəşə tutulması nəticəsində yaralanmış uşaqlar**

17 oktyabr 2020-ci il tarixində saat 01 radələrində Ermənistan silahlı qüvvələrinin beşinci dəfə Gəncə şəhərini beynəlxalq səviyyədə qadağan olunmuş SCUD silahı ilə atəşə tutması çoxsaylı insan tələfatına səbəb oldu, aralarında 1 yaşlı Mədinə Şahnəzərli, 15 yaşlı Nigar Əsgərova, 10 aylıq Narin Xalıqova, 11 yaşlı Orxan Xəlilli, 6 yaşlı Məryam Xəlilli, 13 yaşlı Artur Mayakov olmaqla 6 uşaq həlak olmuş, 8-i isə yaralanmışdır.




**17 oktyabr 2020-ci il tarixində Gəncə şəhərinin 5-ci dəfə atəşə tutulması zamanı həlak olan uşaqlar**

24 oktyabr 2020-ci il tarixində Tərtər şəhərinin və 27 oktyabr 2020-ci il tarixində Bərdə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq səviyyədə qadağan olunmuş kasetli bombalardan atəşə tutulması zamanı 16 yaşlı Orxan İsmayılzadə və 7 yaşlı Aysu İsgəndərova həlak olmuşdur.



**27 oktyabr 2020-ci il tarixində Aysu İsgəndərova həyətda oynayarkən raket atəşi nəticəsində həlak olmuşdur.**

7 noyabr 2020-ci il günorta saatlarında Bərdə rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində 16 yaşlı Şahmalı Rəhimov həlak olmuşdur.




**7 noyabr 2020-ci il tarixində Bərdə rayonunun atəşə tutulması zamanı 16 yaşlı Şahmalı Rəhimov həlak olmuşdur.**

Ümumilikdə dörd uşaq hər iki valideynini itirmişdir.




**Gəncə şəhərinə edilən raket hücumları nəticəsində hər iki valideynini itirən uşaqlar**

Bu hücumlar uşaqların həyatını təhlükə altında qoymaqla yanaşı, onların inkişaf, öyrənmə və səhiyyə xidmətlərindən istifadə imkanlarının məhdudlaşmasına səbəb olmuşdur.

## HÜQUQİ ASPEKTLƏR

Şübhəsiz ki, uşaqlar əhali qrupları arasında ən həssasıdır. Beynəlxalq hüquq uşaqların (18 yaşdan aşağı şəxslər) müdafiəsini dəqiq ifadə edir- nəzərdə tutulan bütün vəziyyətlərdə əsas diqqətin onların ən ümdə maraqlarının təmininə yönəldilməsi BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasında təsbit olunmuşdur. Silahlı münaqişələrdə uşaqların qorunmasının prinsip və müddəaları Cenevrə Konvensiyasında (1949) və Əlavə Protokollarda (1977), Uşaq Hüquqları haqqında Konvensiyada (1989) və Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokolunda (2000) və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda əks olunmuşdur.[1]

BMT-nin Baş Assambleyası tərəfindən 1974-cü ildə qəbul edilmiş Qadın və uşaqların fövqəladə vəziyyət və silahlı münaqişələr zamanı müdafiəsinə dair bəyannaməsində mülki əhaliyə, xüsusilə əhalinin ən həssas üzvləri olan qadınlara və uşaqlara qarşı saysız-hesabsız hücumların və bombardmanların qadağan olunduğu vurğulanır və bu cür hərəkətlər pislənilir.[2]

Bütün dövlətlər qadınların və uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə Protokolu və 1949-cu il Cenevrə Konvensiyaları çərçivəsində, həmçinin silahlı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə dair digər beynəlxalq hüquq aktlarla götürdüyü müvafiq öhdəlikləri tam yerinə yetirməlidirlər.[3] Ermənistan Respublikası da həmin beynəlxalq müqavilələrdən irəli gələn və üzərinə düşən öhdəlikləri yerinə yetirməli olduğu halda bunu icra etmir.

AŞPA Avropa Şurasının da bu sahədə standartlarının qeyd olunduğu "Uşaqların silahlı münaqişələrdən qorunmasına dair" 2018-ci il 2204 saylı qətnamə qəbul etmişdir. Buraya silahlı münaqişələr də daxil olmaqla uşaqların zorakılıqdan müdafiəsini və belə zorakılıqla üzləşdikdən sonra onlarda inamı yenidən bərpa etmək üçün fəaliyyətlərin həyata keçirilməsi, uşaqlara ünvanlanmış inzibati və hüquqi qaydaların hazırlanmasını nəzərdə tutan Avropa Şurasının 2016-2021-ci illər üzrə Uşaq hüquqlarına dair Strategiyası daxildir.[4]

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 38-ci maddəsinə uyğun olaraq, iştirakçı dövlətlər silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq, silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görürlər.[5] Lakin Ermənistan dövləti üzvü olduğu bu sənədin normalarını kobud şəkildə pozmağa davam etməkdədir.

[1] https://www.unicef.org/chinese/protection/files/Armed_Conflict.pdf
[2] https://www.un.org/ruleoflaw/blog/document/declaration-on-the-protection-of-women-and-children-in-emergency-and-armed-conflict/
[3] https://www.un.org/ruleoflaw/blog/document/declaration-on-the-protection-of-women-and-children-in-emergency-and-armed-conflict/
[4] https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=24495&lang=en
[5] https://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx

## UŞAQLARIN HƏRBİ ƏMƏLİYYATLARA CƏLB OLUNMASI

Ermənistanın Azərbaycana qarşı müharibə zamanı uşaqlardan istifadə etməsi faktı da bizi dərindən narahat edir.

Sosial media platformalarında paylaşılan video görüntülərdə Ermənistan hərbçilərinin xüsusən 15 yaşından kiçik bir uşağı Azərbaycan mövqelərinə qarşı aktiv artilleriya atəşinə cəlb etməsi aydın görünür.[6]



**Yeniyetmənin hərbi hücumlarda iştirak etdiyi videodan görüntü(1),2020**



**Ermənistan silahlı qüvvələrinin hərbçiləri uşaq bağçasında görüş keçirirlər.**

[6]https://www.facebook.com/105991020939963/videos/384235506283757

1949-cu il Cenevrə Konvensiyasının Əlavə Protokolları (1977, Maddə 77.2), Uşaq hüquqları haqqında Konvensiya (1989), Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (2002) bütün dövlətlərin silahlı qüvvələrinin və qeyri-dövlət silahlı qruplarının 15 yaşından kiçik uşaqlardan istifadə etməsini, Uşaqların silahlı münaqişəyə cəlb olunması ilə bağlı Fakultativ Protokol (2000) və Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiya 18 yaşına çatmamış uşaqların silahlı münaqişəyə məcburi cəlb olunmasını qadağan edir. Bu isə hərbi cinayət kimi qəbul edilir.

# NƏTİCƏ

Ermənistanın Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə, Tərtər, Bərdə rayon və şəhərlərinin mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində ümumilikdə 12 uşaq həlak olmuş, 50-si yaralanmış, 4 uşaq hər iki valideynini, bir çox uşaq isə valideynlərindən birini itirmişdir. Mülki şəxslər xüsusilə də uşaqlar döyüşlərdə hədəf olmamalıdır. Əhalinin ən həssas qrupu kimi uşaqlar bundan daha çox əziyyət çəkir. İntensiv bombardman uşaqlar arasında panika və qorxu yaradır, onların psixoloji sarsıntı keçirməsinə səbəb olur, həmçinin təhsil və səhiyyə xidmətlərindən istifadə imkanlarını məhdudlaşdırır, beləliklə uşaqların inkişafına mane olur.

İndiyə qədər tərəfimizdən 6 fakt-araşdırma missiyası aparılıb ki, burada da Ermənistan silahlı qüvvələrinin əsasən mülki infrastrukturu, yaşayış evlərini, xəstəxanaları, təhsil müəssisələrini, uşaq bağçalarını və digər sosial obyektləri qəsdən və məqsədli şəkildə hədəfə aldığı müşahidə edilib. Bir sıra məktəb və uşaq bağçaları ciddi ziyan görüb. Bugünədək tərəfimizdən 7 bəyanat verilib və bütün müvafiq beynəlxalq təşkilatlardan Ermənistanı mülki yaşayış məntəqələrini atəşə tutmasını dayandırmağa və beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməyə çağırış edilib. Tərəfimizdən UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoruna müraciət edilərək yerində araşdırma aparılması və Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmanın nəticələrini görməsi xahiş olunub.

İkinci dəfə tərəfimizdən UNICEF-in İcraçı Direktoruna onun bir aydan artıq davam edən Dağlıq Qarabağ və ətraf ərazilərdə gedən döyüşlər zamanı Azərbaycanın döyüş əməliyyatları zonasından kənar bölgələrində öldürülən uşaqların yalnız adlarının çəkilməsi, onların soyadları və harada həlak olması barədə məlumatın daxil edilməməsi kimi qərəzli, qeyri-müəyyən bəyanatı ilə bağlı məktub ünvanlanıb.

Beləliklə, topladığımız dəlillərə uyğun olaraq deyə bilərik ki, Ermənistan silahlı qüvvələri nəinki mülki insanları hədəf alaraq hərbi cinayətlər törətməklə humanitar qanunları pozmuş, eləcə də beynəlxalq insan hüquqları qanunlarını da kobud şəkildə pozmuşdur.

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

Rəsmi internet səhifəsi: www.ombudsman.az

Facebook səhifəsi: https://www.facebook.com/ombudsman.az

Twitter səhifəsi: @az_ombudsman

Çağrı Mərkəzi : (012) 916

Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, Hökumət evi, II Ala qapı

Tel/Fax: (+99412) 493 74 22, (+99412) 498 2365

ombudsman@ombudsman.az

apparat@ombudsman.az